Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası




# 60 ildir səmalarda qanad çalan "Göyərçin"

**"Göyərçin" jurnalının 60 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**60 ildir səmalarda qanad çalan "Göyərçin":** "Göyərçin" jurnalının 60 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası ; tərt.ed. N. Məcidova ; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı : F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. - 29 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Düz 60 ildir ki, Azərbaycan göylərində qanad çalan “Göyərçin” in Azərbaycan mətbuat salnaməsində özünəməxsus yeri var. Görkəmli təmsil ustası Hikmət Ziyanın “Göyərçin” qartallar yetişdirir” fikrinə uyğun olaraq, doğrudan da, bir-birini əvəz edən neçə-neçə nəsillərin tərbiyəsində bu jurnal çox işlər görüb. Öz sehirli qanadlarında evlərə nağıl, şeir, hekayə, tapmaca, əyləncə, bir-birindən maraqlı rəsmlər aparıb. Bu minvalla “Göyərçin” Azərbaycan dövlətinin himayəsi ilə hələdə öz uçuşlarını davam etdirir.

1958-ci ildən bu günədək nəşr edilən “Göyərçin” jurnalı neçə-neçə insan nəslinin tərbiyəsində mühüm rol oynayıb. Səhifələrində neçə-neçə dünya və Azərbaycan uşaq ədəbiyyatının nümunələri nəşr edilən Göyərçin, ibtidai siniflərimiz üçün dərsliklərimiz tərtib edilərkən ilkin mənbə kimi həmişə istifadə edilmişdir. Buna görə də “Göyərçin”i əlifbadan sonra ikinci dərslik adlandırıblar və bu fikirlərində yanılmayıblar. Çünki tədris vəsaitlərinin, oxu kitablarının, dərsliklərin hazırlanmasında həmişə ilk dəfə “Göyərçin”də çap olunan bədii mətnlərdən istifadə olunub və bu iş indi də davam etdirilir.

“Göyərçin” nəşrə başlayan gündən onun səhifələrində ədəbiyyat tariximizə adları əbədi həkk olunan Abdulla Şaiq, Süleyman Rəhimov, Mirzə İbrahimov, Mehdi Hüseyn, Əli Vəliyev, Rəsul Rza, Süleyman Rüstəm, Məmməd Rahim, Əhməd Cəmil, İlyas Əfəndiyev, Mirvarid Dilbazi, Əzizə Cəfərzadə, Bəxtiyar Vahabzadə, Qasım Qasımzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Anar, Elçin, eləcə də digər görkəmli yazıçı və şairlərimizin əsərləri çap olunub. Bu jurnalın həm də uşaqlar üçün gözəl rəsmlər, illüstrasiyalar çəkən rəssamların yetişməsində böyük rolu olub.

## 60 ildir səmalarda qanad çalan "Göyərçin"

Azərbaycan mətbuatı öz novatorluğu, çoxşaxəli fəaliyyəti ilə əsrlərin sınağından keçərək bu günümüzə qədər gəlib çatmışdır. Mətbuat tariximizin əsası 1875-ci ildə görkəmli elm xadimi Həsən bəy Zərdabi tərəfindən "Əkinçi" qəzeti ilə qoyulmuşdur. Uşaq mətbuatının əsası isə 1906-1908-ci illərdə "Dəbistan" adlı uşaq jurnalının nəşri ilə qoyulmuşdur. İlk uşaq jurnalı olan "Dəbistan"ın ilk nömrəsi 1906-cı ilin aprelin 16-da, son nömrəsi isə 1908-ci il martın 10-da nəşr edilmişdir. Cəmi 27 nömrəsi işıq üzü görən jurnalın səhifələrində pedaqoji məsələlər, uşaqların təlim-tərbiyəsinə dair bədii əsərlər, görkəmli adamların həyatı, elm və texnika yenilikləri, fizika, riyaziyyat, coğrafiya və s. haqqında yazılar dərc edilmişdir. Jurnalın işində o vaxtki ziyalılar N. Nərimanov, A. Şaiq, M. Hadi, S. M. Qənizadə, R. Əfəndiyev və başqaları yaxından iştirak etmişlər. Redaktorları isə Ə. Cəfərzadə və M. Əfəndizadə idi. Azərbaycan yazıçıları ilə yanaşı jurnalda uşaqlar üçün Krılovun, Hötenin, Lermantovun Puşkinin tərcümə edilmiş uşaq şeirləri və təmsillərinin yer alması jurnalın oxunaqlı olmasına kömək etmişdir. Bundan sonra 1906-1907-ci illərdə *"Rəhbər*", 1911-1920-ci illərdə isə "*Məktəb*" adlı uşaq jurnalları da işıq üzü görmüşdür. Nəşri Azərbaycan Demokratik Respublikası dövrünə təsadüf edən *"Məktəb"* jurnalı əsasən demokratik ruhda tərbiyəyə yönəlmişdir. Cəmi 95 nömrəsi çapdan çixan jurnalın ilk sayında Nəriman Nərimanovun "*Əziz balalar*" başlığı ilə verilmiş müraciətində belə deyilir: "Şükür olsun ki, axır illər məktəblər artır, camaatda məktəbə az da olsa məhəbbət hissi də artır. Məktəblər artdıqca başqa ehtiyaclarımız da meydana çıxır. O cümlədən bu gün ehtiyacımız olan şeylərdən biri balalarımıza aid olan məcmuələrin olmasıdır. Bu bir vəzifədir, böyük bir xidmətdir. Bunun üçün uşaq ataları, müəllim və müəllimələr çalışmalıdır. Biz isə sadəcə bir vasitə ola bilərik."

Jurnalın “Məktəbə dəvət” bölməsində isə belə yazılırdı. Məktəb ən böyük və ən qiymətli bir binadır. Ən gözəl keçirilən ömür, ən ləzzətli vaxt məktəb illəridir. İnsan oraya gözləri qapalı gəlir, amma gözləri açıq, zehni dolu çıxır.

Uşaq jurnalı sayılan “*Rəhbər*” jurnalının da uşaq ədəbiyyatının inkişafında xüsusi rolu olmuşdur. Yeniyetmələrin təlim və tərbiyəsi həmin dövürdə yaranan uşaq mətbuatının qarşısında dayanan əsas vəzifələrdən biri idi. Bu vəzifəni sonrakı dövrlərdə bu jurnalların davamçıları olan “*Gənc işçi”, “Pioner”, “Qırmızı günəş”, “Göyərçin”* və s. kimi qəzet və jurnallar davam etdirirdi. Bu nəşrlər öz ətrafında güclü ədəbiyyat nümayəndələri ilə yanaşı, müəllim və tələbələrdən ibarət bir ziyalı dəstəsi topladığından hər bir fərdin sevərək oxuduğu stolüstü qəzet və jurnalından biri idi. Bu gün də bu ənənəni davam etdirən uşaq jurnalları sırasında “Göyərçin”, “Elli”, “Göy qurşağı”, “Bala dili” və s. kimi uşaq jurnallarını görürük. Bu il bu jurnalların sırasında xüsusi yeri olan, hər bir məktəblinin sevimli jurnalı “Göyərçin” jurnalının 60 yaşı tamam olur. Bu 60 ildə Göyərçin neçə-neçə nəsli öz səhifələrində çap etdiyi yazıları ilə tərbiyə etmiş, onların vətənpərvər, əsl vətəndaş kimi böyüməsində önəmli rol oynamışdır. Göyərçin jurnalı bütün məsələlərdə uşaqlara əzmlə xidmət etmişdir. Fəxrlə deyə bilərik ki, dərslik kimi çap olunan kitablarda – “Əlifba” da, “Oxu” və “Ana dili” dərsliklərində jurnalda çap olunanlara istinad edilir. Jurnalda uşaqlar üçün gözəl şeirlər, hekayələr nağıllarla yanaşı tarixi bilgilər, islami və milli dəyərlər və s. haqqında yazılar dərc olunurdu. Düz yarım əsrdən çoxdur ki, Göyərçin zərrə-zərrə ucalmış, qanadlarında ellərə sevinc, fərəh daşıyaraq, hər gəlişi ilə ömrümüzə fərəh gətirmiş, hər qanad çaldıqca üstümüzə şeir, sənət yağdırmışdır.

Jurnalın ilk redaktoru görkəmli yazıçı, dramaturq, gözəl jurnalist Yusif Əzimzadə olmuşdur. Sonralar həmin vəzifələrdə

Hüseyn Abbaszadə, Xalidə Hasilova, Tofiq Mahmud və b. işləmişlər.

İlk baxışda sadə, bəsit görünən uşaq aləmi, əslində o sadəliyi qədər zəngindir. Daima öz səhifələrində onları maraqlı yazıları, şeirləri ilə maraqlandırmaq, uşaq ədəbiyyatı nümayəndələri ilə tanış etmək, onların kiçik hekayə nağıllarını oxuculara təqdim edən "Göyərçin" hələ də maraqla oxunur. Həmçinin müxtəlif əyləncəli oyunlar, test sualları, viktorinalar verilməsi uşaqların məntiqi təfəkkürünün inkişafına da kömək edir. Təbiət guşəsində isə onlar təbiətin maraqlı möcüzələri, heyvanlar haqqında məlumatlar əldə edə bilirlər. İstedadlı uşaqları üzə çıxartmaq üçün isə onların əl işləri, yazdığı şeirləri, kiçik hekayələri və çəkdikləri rəsm əsərlərindən nümunələrə də jurnal səhifələrində yer ayrılır. Sonuncu üz qabığında isə uşaqların tərbiyəsi üçün əhəmiyyətli olan hikmətli sözlər, ibrətamiz kəlamlardan, nümunələr verilir.

## Yubiley tədbirlərinin keçirilməsi

Uşaq mətbuatının oxunaqlılığı onun həcmcə kiçikliyi ilə deyil, bitkinliyi, söz ustalığı, sadəliyi ilə izah edilən bir tərzdə verilməsidir. Azərbaycanda uşaq mətbuatında kiçikyaşlı uşaqlar üçün nəşr edilən "Göyərçin" jurnalının da xüsusi yeri vardır. 1958-ci ildə ilk sayı işıq üzü görən jurnalın bu il 60 yaşı tamam olur. Jurnal ibtidai sinif şagirdləri və məktəb yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. Jurnalın 60 illik yubileyi münasibətilə kitabxanada müxtəlif tədbirlər hazırlamaq olar. Uşaqların jurnalı necə tanıdıqlarını, onlar üçün nə qədər maraqlı olduğunu öyrənmək və s. üçün şifahi anket sorğusu keçirə bilərik.

Sorğu üçün aşağıdakı sualları verə bilərik:

1.☺ Hansı uşaq jurnallarını tanıyırsınız?

2.☺ Göyərçin jurnalında xoşunuza gələn bölmələri deyin.

---

3.☺ Jurnalda daha nə haqqında öyrənmək istəyirsiniz?

---

4. ☺ Jurnalın rəsmlərindən razısınızmı?

5. ☺ Uşaq yazıçılarımızdan kimlərin "Göyərçin" jurnalı haqqında şeirlərini bilirsiniz?

---

6. ☺ Jurnalın redaktorlarından kimlərin adını eşitmisiniz?

Sərgilər kitabxanada keçirilən əsas tədbirlərdən biri kimi oxucuların yaddaşında məlumatın daha möhkəm qalmasında əhəmiyyətli yer tutur. Göyərçin jurnalının 60 illik fəaliyyəti ilə bağlı kitabxanada təşkil edilən sərgidə jurnalın müxtəlif nömrələrini və ya təkcə yubiley buraxılışlarını seçib nümayiş etdirmək olar. Sərgini *"Azərbaycan göylərində qanad çalan Göyərçin", "Göyərçin, balaların sevimli quşu", "Göyərçin"im – ağ quşum", "Mən göyərçinəm, şən göyərçinəm, Hətta qartala tən Göyərçinəm"* və s. başlıqlar altında verə bilərik. Jurnalın nömrələri ilə yanaşı, sərgidə jurnalın indiyə qədər ki yaradıcı kollektivinin fotoları, baş redaktorları, rəssamları və onlar haqqında məlumatları, dövri mətbuatdan və ya jurnalın nömrələrindən seçib nümayiş edə bilərik. Aşağıda sizi sərgi nümunələri ilə tanış edirik:


GÖYƏRÇİN
60


GÖYƏRÇİN


GÖYƏRÇİN
4


GÖYƏRÇİN
1
55
YAŞ


GÖYƏRÇİN
3
Hekayə
Şeir
Nağıl


GÖYƏRÇİN
1
50
YAŞ

GÖYƏRÇİN
5

GÖYƏRÇİN
5

GÖYƏRÇİN
4

GÖYƏRÇİN
9

*"Göyərçin" jurnalının ilk yaradıcı kollektivi. Baş redaktor Yusif Əzimzadə məsul katib Hüseyn Abbaszadə və bədii redaktor Yusif Hüseynov jurnalın əməkdaşları ilə* birlikd*ə.*

*Bakı,1958.*





## Görkəmli şəxsiyyətlərin "Göyərçin" jurnalı haqqında söylədikləri fikirlər:

Göyərçin "Əlifba"dan sonra uşaqların oxu vərdişlərini inkişaf etdirmək üçün ən lazımlı bir jurnaldır.

**Misir Mərdanov,**
*professor*

Balalarımızın tərbiyə olunmasında "Göyərçin"in xidməti böyükdür.

**Mehdi Mehdizadə,**
*Azərbaycan SSR-nin Maarif naziri*

Gənc nəslin tərbiyəsində böyük rol oynayan "Göyərçin"i gələcəkdə daha parlaq uğurlar gözləyir.

**Elmira Qafarova,**
*dövlət xadimi*

Jurnal təkcə uşaqların mənəviyyatını, dünyagörüşünü inkişaf etdirməyə xidmət göstərməyib, eyni zamanda tədris-tərbiyə kompleksin hazırlanmasında çox dəyərli, zəngin mənbə olmuşdur.

**Zahid Qaralov,**
*Pedaqoji elmlər doktoru, professor*

Biz babalar nəvələrimizlə baş-başa verib gözəl "Göyərçin"i sevə-sevə oxuyuruq.

**Süleyman Rəhimov,**
*Xalq yazıçısı*

Körpələrimizin həyatına sevinc gətirən, onlarda yaxşı fikirlər və hisslər oyadan “Göyərçin”i ürəkdən təbrik edir, daha gözəl nailiyyətlər arzulayıram.

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı*

Ana göyərçinlər balalarına dostluq və məhəbbət mahnısı oxuyurlar. Bizim bala “Göyərçin”imiz bu mahnını nəsillərə çatdırsın.

**Mirvarid Dilbazi,**
*Xalq şairəsi*

Əziz “Göyərçin” qanadların daha möhkəm, uçduğun fəzanın həmişə günəşli olmasını arzu edirəm.

**Mədinə Gülgün,**
*şairə*

Qanadlarında evlərə sevgi, sevinc aparan “Göyərçin”, 60 yaşın mübarək!

**Ağacan Əhmədov,**
*Azərbaycan Gənclər İttifaqının sədri*

***"Göyərçin"in keçmiş baş redaktorlarının jurnal haqqında söylədikləri fikirlər:***

Sən elə bir "Göyərçin"sən ki, hər məktəbdə isti yuvan var. Hamı, əlbəttə, hamıdan çox körpələrimiz, balaca vətəndaşlarımız səni səbirsizliklə gözləyir.

**Yusif Əzimzadə**

Mən "Göyərçin"i çox sevirəm, istəmirəm ki, onun müqəddəs yuvasına yad nəfəs toxunsun.

**Tofiq Mahmud**

Yüzlərlə, minlərlə evə sevinc aparan, qəhrəmanlarımızı tanıdan, hekayəli, şeirli, nəğməli qanadların daha möhkəm, daha əlvan olsun!

**Xalidə Hasilova**

Qoy Azərbaycan balalarının sevimli jurnalı "Göyərçin" daha gözəl, daha maraqlı olsun. Onun min-min təzə nömrəsi çıxsın. Hər nömrəsi oxuculara yeni-yeni sevinc gətirsin.

**Hüseyn Abbaszadə**

Kitabxanada keçirilən tədbirlərdən səhərciklər uşaqlar üçün həmişə maraqlı olub. Göyərçin jurnalının 60 illik yubileyi münasibətilə *"Uşaq jurnallarımız"* adlı səhnəcik keçirə bilərik. Səhnəcikdə oxucular vasitəsilə uşaq jurnallarının hər biri haqqında məlumat hazırlaya bilərik.

Kitabxanada uşaqlar görkəmli Xalq yazıçımız Anarın jurnalda dərc edilmiş "Əlifba" hekayəsini səhərcik şəklində səhnələşdirə bilərlər. Səhnəni hekayəyə uyğun bəzəməliyik.

**Aparıcı:** Əziz balalar! Hər birimizin məktəbə gedərkən öyrəndiyimiz ilk kitab əlifbadır. Çünki əlifbanı bilməsək gələcəkdə öz yolumuzu tapa bilmərik. Hər hansı peşəyə sahib ola bilmərik. Payızda məktəbə getməyə hazırlaşan balaca dostumuza əmisi bir neçə kitab alıb gətirdi ki, şəkillərinə baxsın, məktəbə gedəndə də oxuyar. Dostumuzsa kitabları görüb çaş-baş qaldı. Axı o hələ oxuya bilmirdi. Bilmirdi hansı kitabı əlinə alsın? Heç əlifbadan da xəbəri yox idi. Birdən bir səs eşitdi:

*Səhnəyə əlifba kitabı gəlir.*

**Əlifba dedi:** Məndən başla.

**Aparıcı:** Balaca dostumuz təccübləndi. Görəsən bu kimdir? – deyə baxanda bunun əlifba kitabı olduğunu gördü.

**Əlifba:** Mən “Əlifba” kitabıyam. Əgər uşaqlar səhifəmdəki 32 hərflərin hamısını bilsələr, bütün sözləri, bütün adları, bütün kitabları oxuya biləcəklər. İnanmırsan özün soruş.

*Səhnədə həriflər təmsil edəcək uşaqlar görünür.*

**A hərfi:** Mən Əlifbanın ilk hərfiyəm. Neçə-neçə gözəl sözlər elə mənlə başlayır: *Ana, Ata, Adam...*

**Aparıcı:** Bağışla, bağışla, – deyə kimsə A-nın sözünü kəsdi.

**B hərfi:** Bəli, bağışla. Əlifabada sən birinci olsanda. Elə “birinci” sözü də mənimlə başlayır. Mən heç vaxt “yox demirəm”, həmişə “bəli” deyirəm. Mənimlə atanın atası “baba” sözü başlayır. Hələ “Bakımı” demirəm.

**Aparıcı:** Kiminsə səsi eşidildi.

**V hərfi:** Heç məni yad etmirsiniz. Mən V-yəm. Vətən mənimlə başlayır. B-nın bəxti var, mənimsə vaxtım. Mən hamı üçün vacibəm, vəfalıyam, varlıyam.

**Aparıcı:** Q hərfi dilləndi.

**Q hərfi:** Qoymaram məni unudasınız. Mən Q-yam. Mən də sizin qardaşınızam.
**D hərfi:** Dostlar! Dostlar! Mən də D hərfiyəm. Dostluq sözü mənimlə başlayır. Deyirəm hamımız dost olaq. Gəlin sözü S-ya verək.
**S dedi:** Salam, salam sevimli dostlar. Sentyabrın 1-i, səhər saat səkkizdə məktəbdə sizi səbirsizliklə gözləyəcəyəm.

*Səhnəcikdən sonra məktəb haqqında mahnı səslənir. Həriflər əl-ələ verib rəqs edirlər.*

Bundan başqa, kitabxanada keçirilən görüşlər də xüsusilə yaddaqalan olur. İlk baş redaktoru, görkəmli elm xadimi Yusif Əzimzadənin işini bu gün sevimli uşaq yazıçımız Rafiq Yusifoğlu davam etdirir. Kitabxanada Rafiq Yusifoğlu ilə görüş keçirmək jurnalın oxucularını sevindirərdi. Görüşə jurnalın rəssamlarından, redaksiya heyətində işləmiş işçilərdən də dəvət edə bilərik.

Kitabxanada keçirilən şeir müsabiqələrinin də öz əhəmiyyəti var. Biz oxucularla şairlərin "Göyərçin" jurnalına yazdığı şeirlər əsasında şeir müsabiqəsi keçirə bilərik. Müsabiqə zamanı şeirləri jurnalın 2018-ci il birinci sayından götürə bilərik. Müsabiqə kitabxanada öncədən təyin edilmiş gündə keçirilir. Oxucular əvvəlcədən öyrəndiyi şeirləri qiraətlə söyləyirlər. Sonda isə münsiflər heyəti düzgün intonasiyası ilə fərqlənən oxucunu müsabiqənin qalibi seçirlər.

## “Göyərçin” haqqında şeirlər

### Azərbaycan uşaqlarının sevimli jurnalı

Ömrün boyu ucalmısan,
Ləyaqətlə yaşamısan.
Qanadında sən ellərə
Sevinc, fərəh daşımısan.

Hey qanad çal, üstümüzə
Şeir, hikmət, nağıl yağsın.
Gəlişinlə ömrümüzə,
Günümüzə günəş doğsun.

Körpələrin ürəyinə
Cığır salan “Göyərçin”im.
Azərbaycan göylərində
Qanad çalan “Göyərçin”im

### Göyərçinəm, göyərçin

Göyərçinəm, göyərçin,
Kəkilim vardır çin-çin.
Ellər məni bəsləyir,
“Uğurlu quşdur” deyir.
Sülhün bir rəmziyəm mən.
Canlı göyərçinlərdən
Ancaq mən fərqliyəm
Əlimdə kağız, qələm,

Başımda fikir, ağıl,
Yazıram şeir, nağıl,
Arabir də hekayət,
Oxuyan alır ibrət.
Gözəl şəkillərim var,
Böyük əməllərim var.
Uşaqlar sevir məni,
Səsim tutub ölkəni.

**Abdulla Şaiq**

### Göyərçin

“Göyərçin”im, ağ quşum,
Gəl, qoşa uçaq, quşum!
Bakının göylərində,
Xəzərin üzərindən,
Gəl uçaq uzaqlara,
Qoşulaq uşaqlara!

Hər zəmidən bir sünbül,
Hər bağçadan bir çiçək.
Toplayıb qucaq-qucaq,
Gəl uçaq, uçaq, uçaq!
Boy ataq ildən-ilə,
Gəl uçaq eldən-elə.

**Əhməd Cəmil**

**Ağ göyərçinim**

"Göyərçin"im sevimli,
"Göyərçim"im dümağdır.
"Göyərçin"im fərəhlə
Hələ çox uçacaqdır.
Dönsün şirin arzular
Həqiqətə-çin olsun.
Ölkələr üzərində
Uçan Göyərçin olsun!

**Məmməd Rahim**

Tədbirin ikinci hissəsini ədəbi-bədii gecə təşkil edir. Gecəni keçirmək üçün səhnə rəngli dekorasiyalarla, sülh simvolu olan göyərçinlərlə, jurnalla əməkdaşlıq edən şair və yazıçılarımızın adları və ya portretləri ilə, nağıl qəhrəmanlarının şəkilləri, məktəbəqədər və kiçikyaşlı uşaqlar üçün maraqlı olacaq tərzdə bəzədilir. Jurnalın yubileyi ilə əlaqədar yazıçı və şairlərimizin jurnala həsr etdiyi şeirlərdən hər hansı bir parça verilir. Aşağıda həmin şeirlərdən bir neçəsini nümunə veririk:

Olsun "Göyərçin"in yaşı mübarək
Onun hünərinə alqışlar deyək.
Daha da ucalsın, qalxsın, boy atsın
Şeirlər, nəğmələr, sözlər yaratsın

**Nigar Rəfibəyli**

“Göyərçin”! Neçə ildir
Dillərə düşüb adın.
Gəz elləri heç zaman
Yorulmasın qanadın.

**Mirmehdi Seyidzadə**

Gecəyə jurnalın redaktorunu, əməkdaşlarını, jurnalda işləmiş həmkarlarını, müəllimləri, oxucuları dəvət edə bilərik. Gecəni kitabxananın direktoru açaraq gələn qonaqları salamlayır. Sonra qonaqların çıxışları dinlənilir. Gecəyə başlamazdan öncə qonaqlara jurnalın 60 illik fəaliyyətini əks etdirən slayd nümayiş etdirilir. Slayd bitdikdən sonra aparıcılar tədbir keçirilən zala daxil olur.

**I aparıcı:** Salam hörmətli tədbir iştirakçıları və əziz uşaqlar!

**II aparıcı:** Hər birinizi sevimli jurnalımız olan “Göyərçin”in 60 illik fəaliyyətinə hazırladığımız yubiley tədbirimizdə xoş gördük.

**I aparıcı:** Ədəbiyyatımızda XIX əsr və sonrakı dövrlərdə Abdulla Şaiq, Mikayıl Müşfiq, Xanımana Əlibəyli, Mikayıl Rzaquluzadə, F.Köçərli və bir çox ədiblərimiz uşaq ədəbiyyatı üçün gözəl nümunələr yaratmışlar. Bununla bağlı məktəblərdə maarifləndirmə ilə əlaqədar kitablarla yanaşı, qəzet və jurnallarada ehtiyac duyulurdu.

**II aparıcı:** 1958-ci ildən bu günədək müntəzəm nəşr olunan “Göyərçin” uşaqlar üçün bir məktəb oldu. Elə ona görə də “Göyərçin” əlifbadan sonra uşaqların oxu vərdişlərini inkişaf etdirmək üçün ən lazımlı, gərəkli bir vasitə olaraq qiymətləndirilmişdir.

**I aparıcı:** Yusif Əzimzadənin baş redaktorluğu ilə fəaliyyətə başlayan, "Göyərçin"nin ilk sayının ərsəyə gəlməsində Hüseyn Abbaszadə, Xalidə Hasilova, Tofiq Mahmud, Hikmət Ziya, Xəlil Rza Ulutürk kimi görkəmli ədiblər böyük rol oynamışlar.

**II aparıcı:** Qardaş ölkələrin uşaq jurnalları ilə bir sırada addımlayan "Göyərçin"in 50 illik yubileyi münasibətilə onu Qırğız uşaq jurnalı olan "Bayçiçək", "Murzilka" və onun yaradıcı kollektivi təbrik etmişlər. "Bayçiçək" Qırğız uşaq jurnalının təbrikində qeyd edilir: "Əziz "Göyərçin"! Səni, redaksiyanın yazıçılarını və rəssamlarını 50 illik şərəfli yubiley münasibətilə ürəkdən təbrik edirəm. Sən 50 il müddətində neçə-neçə nəsillərin sevimli jurnalı olmusan. Biz "Göyərçin"in daha yüksəklərə uçuşunda onunla əməkdaşlıq etməyə hazırıq".

**I aparıcı:** "Murzilka" jurnalı və onun yaradıcı kollektivinin göndərdiyi təbrik isə belə idi: "Böyük qardaşım "Göyərçin"! Qoy buludsuz səmada qanadların daha möhkəm olsun".

İndi daha da gözəl, daha maraqlı çıxan "Göyərçin", uşaqları islami, milli və bəşəri dəyərlər ruhunda tərbiyə edən sehirli bir məktəbdir. Gəlin indi də vaxtilə jurnalla əməkdaşlıq edən ədiblərimizin, şeirlərini dinləyib, əsərlərindən səhnələrə tamaşa edək.

*Səhnəyə uşaq yazıçımız Zeynal Cabbarzadənin ilin fəsillərini tərənnüm edən "Çox sevirəm" şeirini söyləmək üçün uşaqlar gəlir.*

**Çox sevirəm**

**I oxucu:** Baharı çox sevirəm,
Hər tərəf yaşıllaşır.
Dağlardan gələn sular
Sel olub, aşıb-daşır.

Qaranquşlar eyvanda
Qurur öz yuvasını.
Çox sevirəm baharın
Sərin, saf havasını
Göydə ildırım çaxır,
Dağlar başı çən olur
Bahar fəsli gələndə
Hamı, hamı şən olur.

**II oxucu:** Mən yayı çox sevirəm
Göy üzü təmiz olur
Yayda çox sevdiklərim
Çay olur, dəniz olur.
Günəş qızdırır yeri,
Ağaclar gətirir bar.
Yaylaqlarda dincəlir
Yay gələndə adamlar.
Üzümlər şirinlənir,
Əncirlərdən axır bal.
Bağbanlar bol meyvəni
Yığmağa tapmır macal.
Yaşıl xalı sərilir,
Düzənlərə, dağlara.
Yay fəsli ləzzət verir
Balaca uşaqlara.

**III oxucu:** Payızı çox sevirəm,
Havalar gözəl olur.
Qızıl rəngli yarpaqlar
Tökülür, xəzəl olur.
Ağaclardan dərilir

Alma, armud, heyva, nar.
Hərdən dolur boşalır,
Göydə uçan buludlar.
Civildəşir sərçələr
Qışdan gətirir xəbər.

**IV oxucu:** Mən qışı çox sevirəm
Çünki qarı bol olur
Şaxtaları bol olur.
Buz salxıma bənzəyir.
Küçələri bəzəyir.
Atılıram, düşürəm
Buz üstə sürüşürəm.
Qorxutmayır qar məni,
Anama söyləyirəm
Gəzməyə apar mən

*Şeir bitir. Uşaqlar səhnədən gedir. Aparıcılar səhnəyə gəlir.*

**I aparıcı:**
Ay uzun saç, qaragöz
Ağıllı kuklam mənim!
Gəl əlifba oxuyaq.
Sən şagird ol,
Mən müəllim
Bir de görüm "A"
İncimə kukla.
Yoxsa səninlə
Danışmaram, a!..

**I aparıcı:** Məşhur uşaq mahnısı sayılan "*Kuklam*" mahnısının müəllifi, yazıçı drammaturq Cahangir Məmmədov uzun müddət "Göyərçin"in səhifələri ilə uşaqlarımıza xidmət

etmişdir. Onun “*Ay mişar, tələs mişar*”, “*Təkərli məktəb*”, “*Mənim özbək qardaşım*”, “*Günəşin nağılı*” kimi şeirləri də jurnalda dərc edilən balacalarımız üçün ən qiymətli hədiyyə olub.

**II aparıcı:**

– Biz gedirik
  Səhər kəndə
– Mən də! Mən də!
– Yox getmirik.
  Daha kəndə.
– Mən də! Mən də!
– Yenə nə var başlamısan
– Gözlərini yaşlamısan?
  Bizdən bir söz eşidəndə
  Zarıyırsan: Mən də! Mən də!
  Ağaca çıxaq!
  Mən də! Mən də!
– Armudu yığaq!
– Mən də! Mən də!
– Armud kal imiş
– Mən də! Mən də!

“Göyərçin” belə maraqlı şeirlərilə hamımızın sevimlisinə çevrilib. Oxuyanda bizə uşaqlığımızı xatırladan belə şeirlər daim jurnalın səhifələrini bəzəyib. Gəlin Teymur Elçinə məxsus digər şeirləri də yada salaq.

Səhər-səhər bağçada,
Bir sərçə dən yeyirdi.
Hərdən baxıb üzümə,
“Cik-cik, cik-cik” deyirdi.

O yedi, doydu, qaçdı.
Birdən itdi gözümdən.
Bəs o balaca sərçə
Hara getdi gözümdən?!
Çox çağırdım gəlmədi,
Tutdu ağlamaq məni.
Birdən kolun dalından
Uçan gördüm sərçəni.
O uçdu, uçdu, uçdu,
Qondu yaşıl budağa
Ha çağırdım gəlmədi,
Uçub getdi uzağa

**Balaca ulduzlar**
Göydə yox, yerdədir
Bizim ulduzlar
Balaca oğlanlar
Balaca qızlar
Günəşin dalınca
Gedirlər hər gün,
Dünyanı zülmətdən
Qurtarmaq üçün
Göydə yox, yerdədir
Bizim ulduzlar
Balaca oğlanlar,
Balaca qızlar.

**I aparıcı:** Mikayıl Rzaquluzadənin "Ən qiymətli almaz" şeirində isə söylənilir ki, ən qiymətli əşya almazdır. Lakin onu nə çar taxtında, nə çayda, nə göllərin dibində, nə də dağlarda

tapmaq olar. Bəs onu hardan tapmaq olar? Sualı müəllif belə cavablandırır.

Torpaq alın tərindən
Güc alır, qüvvət alır.
Artır onun qüdrəti
Ən yüksək qiymət alır.
Bir damcı alın təri
Düşsə torpağa ancaq
Ən qiymətli almaza
Çevrilər qara torpaq.

**II aparıcı:** Əminik ki, yazıçının kiçikyaşlı oxucular üçün yazdığı "Altıyaşlılar" adlı səhnəcik sizində xoşunuza gələcək. Gəlin birlikdə tamaşa edək.

*Səhnə məktəbin idman zalını xatırladan altıyaşlılar üçün nəzərdə tutulmuş bir otaq. Burada balaca skamyalarda var. Uşaqlar skamyalarda qəmli halda oturmuşlar. 5-6-cı sinif şagirdi Yusif əlində topu oynada-oynada onlara yaxınlaşır.*

**Yusif:** Hə, indi gəlin voleybol oynayaq. Di qalxın ayağa... Sizinlə deyiləm? (Topu uşaqların üstünə atır. Heç kəs tutmur. Yusif fikirli halda gəzişir) Voleybol istəmirsiniz... Yaxşı, gəlin futbol oynayaq. (*Heç kəs yerindən tərpənmir)* Futbolda istəmirsiniz... Bəs nə istəyirsiniz, nə?

**Afaq:** Zərqələm müəlliməni istəyirik...

**Yusif:** Zərqələm müəllimə xəstədir. Dünən gəlməyib, bu gün də gəlməyəcək. Direktor xahiş edib ki, 2-3 saat mən sizinlə məşğul olum. Özünüz bilirsiniz ki, mən məktəbin 9 nömrəli hücumçusuyam. İndiyəcən 16 dəfə qol vurmuşam! Siz isə mənə hörmət etmirsiniz... (*Yalvarır).* Uşaqlar xahiş edirəm

gəlin oynayaq. Direktor gəlib görsə ki, boş-bekar oturmuşuq, hamımızı danlayacaq.
**Sona:** Biz Zərqələm müəllimə ilə oynamaq istəyirik...
**Yusif:** Zərqələm müəllimə ilə futbol? Voleybol? (*gülür*)
**İlqar:** O, bizimlə elə maraqlı oyunlar oynayır ki, heç darıxmırıq.
**Rafiq:** Zərqələm müəllimə dərsi çox maraqlı danışır.
**Afaq:** O bizə dadlı-ləzətli xörəklər bişirtdirir.
**Sona:** Yataq otaqlarımızı elə qəşəng bəzəyib ki!
**Yusif:** Uşaqlar! Uşaqlar, bunları mən bilirəm. Zərqələm müəllimə mənədə dərs deyib. Onu hamımız sevirik. İndi neyləmək olar. Fikriniz nədir? Elə oturub, darıxacaqsınız?
**Afaq:** Biz müəllimənin öyrətdiyi dərsi təkrar edəcəyik.
**Eldar:** Mən onun əzbərlətdiyi şeiri bərkdən oxuyacağam.
**Sona:** Mən nağıl danışacağam.
**Rafiq:** Mən tapmaca deyəcəyəm.
**Yusif:** Nağıl, tapmaca, şeir. Bəs idman?
**Afaq:** Sən qorxma, get sinfinə dərsini öyrən. Direktor, müəllim gəlsə özümüz cavab verəcəyik.
**Yusif:** (*onu yamsılayır*) Direktor, müəllim! Yox bir dərs hissə müdiri, müəllim, zavxoz müəllim. (*Deyinə-deyinə getmək istəyərkən Zərqələm müəllimə ilə üzləşir. Təccüblə*) Müəllimə siz gəldiniz? Bəs... bəs...
**Zərqələm müəllimə:** Gəlmişəm,Yusif.Çox sağ ol ki, mənim şagirdlərimlə məşğul oldun, onları darıxmağa qoymadın. (*Yusif başını aşağı salıb gedir. Uşaqlar müəlliməni dövrəyə alırlar.)*
**Afaq:** Müəllimə bizi qorxutdular ki, siz bu gün də gəlməyəcəksiniz.
**Eldar:** Hazırlaşırdıq, ki evinizə gedək.
**Sona:** Sizin üçün yaman darıxmışıq, müəllimə!

**Rafiq:** Müəllimə, daha xəstələnməyin də, nə olar.?

**Zərqələm müəllimə:** (*Gülüb onları qucaqlayır*) Mən də sizin üçün darıxmışam. Həkim evdən çıxmağıma razı olmurdu. Amma dözə bilmədim.

**Afaq:** Eybi yox, biz Sizi indi sağaldarıq.

**Zərqələm müəllimə: (**Təəcüblə) Necə?

**Afaq:** Oturun bax burda. (Balaca termosda çay süzüb, ona verir) Bu çaya kəklikotu, sarıçiçək qatmışam. Onu içsəniz, canınızda nə soyuqdəymə var, çıxacaq.

**Eldar:** Eh, bəlkə müəllimənin xəstəliyi soyuqdəymə deyil, ürək ağrısıdır? Nənəm bu dərmanı qaraçöhrə ağacından hazırlayıb. Deyir kim içsə, o dəqiqə sağalar.!

**Rafiq:** Yox, yox müəllimə, mən üzünüzün rəngindən görürəm ki, qanınız azdır. Ona görə də bax bu dərmanı içməlisiniz. Əvəlik otunun kökündən düzəldilib.

**Sona:** Anam mənə də bir dərman verib. Deyir, kimin ciyəri ağrıyırsa, onu sağaldar. Amma...adını deməyə utanıram.

**Afaq:** Adı nədir? Pişikotu?

**Eldar:** Bəlkə, "Pişiknanəsi"dir?

**Rafiq:** Yox yəqin ki "atılbatıl"dır.

**Sona:** Yox adı "Öküzboğan"dır...

( *Hamı bərkdən gülür*)

**Afaq:** Bir dərman ki, öküzü boğur, onu adama necə vermək olar?

**Zərqələm müəllimə:** Gülməyin uşaqlar, adı qəribə olsa da, özü ciyər üçün çox xeyirlidir.

**Eldar:** Bəs nə üçün adı "öküzboğan"dır?

**Zərqələm müəllimə:** Ona görə ki yarpaqları bərkdir, özü də tikanlıdır. Öküzboğan çəmənlərdə, dağlarda bitir. İyun ayında

sarı çiçəklər açır, beş yarpağı olur. Avqust ayında isə meyvəsini yığıb dərman hazırlayırlar.

**Afaq:** Müəllimə indi siz hansı dərmanı içəcəksiniz?

**Zərqələm müəllimə:** Heç birini. Amma sizin bu yaxşılığınızı ömrüm boyu unutmayacağam! Mənim əzizlərim... Mənim istəkli balalarım! Sizi görən kimi sağaldım. Elə gümrah, şən oldum ki, hamınızla əl-ələ tutub oynamaq istəyirəm.

(*Musiqi. Oyun havası çalınır. Müəllimə və uşaqlar rəqs edirlər)*

**Aparıcı:** "Göyərçin" jurnalının yaşamasında ulu öndərimiz, böyüklərin və uşaqların sevimlisi Heydər Əliyevin çox böyük xidmətləri olmuşdur. Bu görkəmli şəxsiyyətin, eləcə də onun yolunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və diqqəti sayəsində "Göyərçin" bu gün də öz uçuşlarını davam etdirir.

**Aparıcı:** "Göyərçin"in 60 yaşının tamam olması böyükləri də, uşaqları da sevindirir.

*Son*

# Ədəbiyyat siyahısı

**Aşırlı A.** 1957-ci ilin noyabrında uşaqlar üçün... : [“Göyərçin” jurnalının yaranma tarixindən] // Azərbaycan mətbuat tarixi. – Bakı : Elm və təhsil, 2010. – S.153-154.

**Xəlilzadə F.** Zərif qanadlı "Göyərçin" // Azərbaycan. - 2013. - 15 fevral. - № 35. - S. 7.

**Yusifoğlu R.** Azərbaycan uşaqlarının sevimli jurnalı : məqalə // Göyərçin. – 2018. - № 1. – S.5.

**Yusifoğlu R.** Azərbaycan uşaqlarının sevimli jurnalı : Göyərçin – 55 // Göyərçin. - 2013. - № 1. - S. 2,3.

**Yusifoğlu R.** Balalarımızın sevimli jurnalı [Göyərçin jurnalının redaktoru, şair Rafiq Yusioğlu ilə müsahibə / yazdı S.Hüseynoğlu] : Göyərçin - 50 // Ədəbiyyat qəzeti. - 2008. - 8 fevral. - S. 6.

***“Göyərçin” haqqında şeirlər***

Cəmil Ə. Göyərçin : şeir // Göyərçin. – 2018. - № 1. - S. 3. - Şeir ilk dəfə 1958-ci ildə “Göyərçin” jurnalının 1-ci sayında dərc olunub.

Şaiq A. Göyərçinəm, göyərçin : şeir // Göyərçin. – 2018. - № 1. - S. 2. – Şeir 1960-cı ildə “Göyərçin” jurnalının 2-ci sayında dərc olunub.

Rahim M. Ağ göyərçinim : şeir // Göyərçin. – 2018. - № 1. - S. 3. – Şeir ilk dəfə 1960-cı ildə “Göyərçin” jurnalının 2-ci sayında dərc olunub.

Yusifoğlu R. Azərbaycan uşaqlarının sevimli jurnalı : şeir // Göyərçin. – 2018. - № 1. - S. 4.

# 60 ildir səmalarda qanad çalan "Göyərçin"
**( metodik vəsait)**


**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 22
Çapa imzalanmışdır: 01.03.2018
Tirajı:100
Pulsuz